*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 157-162* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.157*

# Qədim tarixi-etnoqrafik bölgəmiz Zəngəzur Azərbaycan romanında

**Lütviyyə Əsgərzadə**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Annotasiya.** Hər bir insanın yaddaşı ömür boyu onun yol yoldaşıdır. Bizə elə gəlir ki, biz yaddaşımızın sahibiyik, əksinə yaddaş bizə sahiblik edir. Bəzən yaddaşı xatirə kimi də xarakterizə edirlər. Psixologiyada yaddaş insanın məlumatları qəbul etməsi, saxlaması və sonradan geri çağırması prosesini öyrənən bir sahədir. Bu baxımdan, yaddaş mənbə rolunu oynayır. Xatirələri beyində ayrı-ayrı kodlaşdırır. İnsan hər an "yaddaş kitabxanası"na baş vurur, xüsusilə yaradıcı insan. Çünki "yaddaş yaradıcı insan üçün xammaldır." Yaddaş Əyyub Abasovun yaradıcılığında ən etibarlı, ən unudulmaz, acı və şirin xatirələrdir, "xammaldır", keçmiş təəssüratların xatırlanması, dərk edilməsidir. Yazıçının yaddaşında tarixi hadisələr, yaşanmış qırğınlarla yanaşı, yurdunun flora və faunası, təbii gözəllikləri, təbii-coğrafi mövqeyi, iqlim şəraiti, dağ silsilələri, keçilməz dərin dərələri ən qiymətli xatirə kimi əbədi həkk olunmuş, qorunub saxlanılmışdır. "Zəngəzur" tarixi romanı ədibin yaddaşından silə bilmədiklərinin inikasıdır.
Məqalədə, Ə.Abasovun tariximizin öyrənilməsində, gənc nəslin bədii-estetik tərbiyəsinin formalaşmasında əhəmiyyətli rol oynayan "Zəngəzur" romanında qədim Oğuz yurdu Zəngəzura ekskursiya etməyə, insanların yaşam tərzi və məşğuliyyətlərinə, bütövlükdə etnoqrafiyasına nəzər salmağa çalışacayıq.
**Açar sözlər:** Azərbaycan romanı, Əyyub Abasov, "Zəngəzur" romanı, Zəngəzurun etnoqrafiyası, flora və faunası, coğrafi mövqeyi

**Məqalə tarixçəsi:** göndərilib – 24.11.2025; qəbul edilib – 01.12.2025

# Our ancient historical-ethnographic region Zangazur in the Azerbaijani novel

**Lutviyya Asgerzade**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Abstract.** Every person's memory, in modern terms, is their hard drive, their lifelong companion. It seems to us that we own our memory, but on the contrary, memory owns us. Sometimes memory is also characterized as a memoir. In psychology, memory is a field that studies the process of a person's perception, storage, and subsequent recall of information. From this point of view, memory plays the role of a source. It encodes memories separately in the brain. A person visits the "memory library" at any moment, especially a creative person. Because "memory is the raw material for a creative person." In the creativity of Eyyub Abasov the most reliable, most unforgettable, bitter and sweet are the memories , "raw material" , the remembrance and understanding of past impressions. In the writer's memory, along with historical events and massacres, the flora and fauna of his homeland, its natural beauties, natural-geographical location, climatic conditions, mountain ranges, impassable deep gorges are forever engraved and preserved as the most valuable memories. The historical novel "Zangezur" is a reflection of what the writer could not erase from his memory.
In the article, we will try to make an excursion to the ancient Oghuz homeland Zangezur in A. Abasov's novel "Zangezur", which plays an important role in the study of our history and the formation of the artistic

and aesthetic education of the younger generation, and to look at its lifestyle, occupations, and ethnography as a whole.
**Keywords:** Azerbaijani novel, Eyyub Abasov, novel “Zangezur”, ethnography, flora and fauna of Zangezur, geographical location

**Article history:** received – 24.11.2025; accepted − 01.12.2025

## Giriş / *Introduction*

20-ci əsr Azərbaycan üçün ermənilərin azərbaycanlılara qarşı ilk irimiqyaslı silahlı çıxışları ilə başlayır. I Rus inqilabının (1905-1907) başlaması ilə ölkədə yaranan qarışıqlıqdan istifadə edən erməni təşkilatlarının “Böyük Ermənistan” xülyasını reallaşdırmaq üçün Bakıda və Zəngəzurda erməni və müsəlman əhalisi arasında törətdiyi silahlı münaqişə (1905-1906) az sonra erməni-azərbaycanlı qırğınlarına çevrilmiş, bütün Cənubi Qafqaz regionunu əhatə etmişdir. Bakı, Tiflis, İrəvan, Gəncə quberniyalarında, xüsusilə Qarabağ, Zəngəzur və s. yerlərdə baş vermiş bu qanlı toqquşma iki ilə qədər davam etmiş, minlərlə yaşayış məntəqəsi dağıdılmış, 17 minə qədər insan həlak olmuş, insanlar doğma yurd yerlərindən didərgin salınmışdır. Sağ qalanlar isə ömürlərinin sonuna qədər bu dəhşətli qırğınların törətdiyi ağır travmalarla yaşamağa məhkum olunmuşlar. Yazıçı, dramaturq, Əməkdar incəsənət xadimi Əyyub Abasov belə insanlardan biridir.

## Əsas hissə / *Main part*

Ən həssas, ən çevik, ətraf mühitə qarşı daha güclü həssaslıqla maraq göstərdiyi uşaqlıq çağlarını “Kiçik Qafqaz sıra dağlarının davamı və ən hündür dağ silsiləsi sayılan, daş zəncir kimi ta Qarabağ yaylasına qədər uzanan, dar dərələri, keçilməz yamacları, qorxunc sıldırımları, sərt qayaları ilə təbii bir istehkamı, qala divarlarını xatırladan”, Oğuz yurdu Zəngəzurda keçirən yazıçı Əyyub Abasov yaşadığı faciələri (1918-1920) də, yaddaşına həkk olunan Zəngəzurun ecazkar təbiətini də unutmamış, yaddaşında yaşatmışdır.

Hər bir insanın yaddaşı, ömür boyu onun yol yoldaşıdır. “Yaddaş keçmiş təəssüratların dərk edilməsi, xatirə isə öz növbəsində düşüncədir, bizim nə isə hiss etməyimizin, qavramağımızın və ya öyrənməyimizin düşüncəsidir [5, s.4-5], yəni açıq-aydın axtarış və bununla əlaqədar idrak aktının şərtləşdirilmiş qərarıdır. Yaddaş abstrakt təfəkkürlə yalnız qismən şəkil vasitəsilə bağlıdır. Xatirə isə şəklin mühitə müəyyən dərəcədə aid edilməsinin dərk olunmasıdır” [5, s.3-4].

Bizə elə gəlir ki, biz yaddaşımızın sahibiyik, amma bu belə deyil, əksinə, yaddaş bizə sahiblik edir. Bəzən yaddaşı xatirə kimi də xarakterizə edirlər. Psixologiyada yaddaş insanın məlumatları qəbul etməsi, saxlaması və sonradan geri çağırması prosesini öyrənən bir sahədir. “Yaddaş mənbə rolunu oynayır və xatirələri beyində kataloqlara bölür, yurdla bağlı xatirələr bir bölümdə, valideynlərimizlə bağlı xatirələr bir bölümdə, yaşadığımız hadisələr ayrı bölümdə qərar tutur” [4, s.30]. İnsan hər an mənbə rolunu oynayan yaddaşa (hard-disk), “yaddaş kitabxanası”na baş vurur, xüsusilə yaradıcı insan. Çünki “yaddaş yaradıcı insan üçün xammaldır”. Yaddaş Əyyub Abasovun yaradıcılığında ən etibarlı, ən unudulmaz, hər gün kino lenti kimi göz önündən keçən acı və şirin xatirələrdir, “xammaldır”, keçmiş təəssüratların xatırlanması və dərk edilməsidir.

Ədibin tarixi romanı “Zəngəzur” məhz keçmiş təəssüratların xatırlanması, “yaşanmış tarixin salnaməsi”, yaddaşından silə bilmədiklərinin inikasıdır. Bu yaddaşda tarixi hadisələrlə, yaşanmış qırğınlarla yanaşı, yazıçının əbədi yaddaşına həkk olunmuş yurdunun flora və faunası, təbii gözəllikləri, təbii-coğrafi mövqeyi, iqlim şəraiti, dağ silsilələri, keçilməz dərin dərələri ən qiymətli xatirə kimi qorunub saxlanılmışdır.

Yurd həsrəti çəkən Əyyub Abasovun 2 cildlik “Zəngəzur” romanının I cildinin ilk səhifəsini yurdunun ecazkar təbiətinin təsviri ilə başlaması bu həsrətin ifadəsidir: “Kəklikotunun, almaçiçəyi-

nin, dağ nanəsinin qoxusunu çəmənliklərə yayan xoş və təmiz sabah rüzgarı… Kolların dibindən, alagül zəmilərin içindən, boz daşların, kəsəklərin üstündən müxtəlif quşların, sinəsi qabarıq bildirçinlər, rəngli tüklü, quyruğu bir yelpazə kimi,  açılıb-bağlanan quğuların, yumruq böyüklüyündə olan boz sərçələrin səsi" [1, s.2]. Bu, müəllifin yurda sevgisinin, qüvvətini aldığı şeylərin, birbaşa özünün yurd həsrətinin izharıdır. Yazıçı doğma yurdunun füsunkar gözəlliyini elə məhəbbətlə təsvir edir ki, oxucu sanki kəklik otunun, alma çiçəyinin, dağ nanəsinin iyini duyur. Yazıçının "yaddaş kitabxanası"nın yurd sevgisi, yurd həsrəti bölümündə yer alan Şəkili ədibin yaradıcılığında baş mövzudur. Çünki "yaddaş abstrakt təfəkkürlə yalnız qismən şəkil vasitəsilə bağlıdır. Xatirə isə şəklin mühitə müəyyən dərəcədə aid edilməsinin dərk olunmasıdır".

Romanın I cildinin 305-ci səhifəsində oxuyuruq: "Gün həmişə İşıqlı dağının ardından doğub Qonaqgörməzi aşaraq üfüqə sancılanda, Şəkinin üstünə qaranlıq çökür. Dünyanın ən parlaq, yanar kürəsi – günəş hələ öz mənzilinə çatmamışdı. Lakin alışıb yanan tellərini Qızılqayanın, Darvazanın, Şamaxının zirvəsindən yığırdı. Təbiət bu yerdə, bax bu zaman öz donunu dəyişdirir, bir gözəllik başqası ilə əvəz olunurdu. Gündüz səmada ağ əlçim kimi görünən buludlar, sıra dağlar, yal-yamaclar getdikcə çəhrayı rəng alırdı. …Göz işlədikcə hündür, sıldırımlı Qaraqayanın özü kimi böyük, qalın kölgəsi bir körpü kimi Şəki ilə Qarakilsənin arasındakı yola düşdü. Bəzi yerdə yolun lap kənarından, bəzi yerdə bir qədər aralıdan, bəzi yerdə lal, bəzi yerdə qıjıltıyla axan Bazarçayının dalğaları günəşin sarı simlərini xatırladan son şüalarından qızılı rəng aldı. Dəqiqələr ötüb getdi. Günəş üfüqün qoynuna girdi, kölgələr əridi, sular, yamaclar, dərələr qaraldı. Cırcıramalar oxumağa, özlərini sahilin yaşıl otları arasından şappıltıyla suya tullayan qurbağalar quruldamağa, yarasalar qanad çalmağa başladı. Çayın səsi yeknəsəq, lakin həzin və xoş bir ney səsi kimi ətrafa yayılırdı…" [1, s.305].

Ədib yaddaşına həkk etdiyi yurdunun gözəlliklərini təsvir etməkdən doymur. O yazır: "Batmaqda olan günəşin solğun şüaları Şəkinin şimalında Kilsəli, cənubunda isə Qonaqgörməz dağlarının zirvəsində oynayırdı. Yavaş-yavaş əl-ayaq yığışırdı. Biçinçilər yüklü atlarını, ulaqlarını kəndə sürür, naxırçılar mal-qaranı köyşəndən qaytarır, xırman döyənlər öküzləri vəldən açıb suvarır, yemləyir, tövlələrdə, həyətlərdə rahatlayırdılar. Gəlinlər, qızlar səhənglərini, bardaqlarını çiyinlərinə alıb, sallana-sallana bulağa gedirdilər" [1, s.8]. Müəllif, Zəngəzur kəndləri arasında özünəməxsus şöhrəti  olan Şəkini o qədər canlı təsvir edir ki, sanki sözlərlə Şəkinin rəsmini çəkir. Şəkinin təbiətini, buradakı həyatı oxucunun gözü önündə canlandırır: "Şəkinin geniş, yaşıl çəmənləri, sıldırım qayalı, baldırğanlı güneyləri, bol otlu, güllü-çiçəkli yaylaqları var. Bu kənddən söhbət gedəndə, hər kəs onun dumduru, sərin suyundan, oğlanlarının zirəkliyindən, qızlarının sədaqət və gözəlliyindən danışar. Kəndin içində daşların arasından irili-xırdalı nə qədər bulaq çıxır! Ancaq bu qaynayan bulaqlar bir-birinə bənzəmir. Bəzisinin suyu az, bəzisininki çoxdur. Bəziləri daşların sinəsindən fışqırtı ilə fəvvarə vurur, bəzisi isə pıqqapıqla, sanki qaynaya-qaynaya çıxır. Bu saysız-hesabsız bulaqların suyu kəndin aşağısında birləşərək, böyük bir çay əmələ gətirir. Yaşıl çəmənlərin sinəsini yarıb özünə əyri-üyrü yol açmış, sahilləri yarpızlı, suyu xallı balıqla dolu olan bu çay ilan kimi qıvrıla-qıvrıla axır. "Darvaza" və "Qızılqayanın" arasından, yüksək qayalıqdan qıjıltı ilə aşağı tökülür, "Şırşır" adlanan ağ köpüklü, gur şəlaləni yaradır. Bu şəlalənin səsi gecə-gündüz qayalara, dağlara düşüb əks-səda verir" [1, s.32].

Zəngəzurun iqlimi, dəyişkən hava durumu, Bərgüşad çayının qıjıltısı, "çəltik üçün yer əkən cütçülərin holavar səsi", "yeknəsəq, lakin həzin və xoş bir ney səsi kimi ətrafa yayılan çayın səsi", dəyişkən havası romanın səhifələrində əks olunur: "Havalar tez-tez açılıb tutulurdu. Bəzən şiddətli yağan yağışlar iki-üç gün kəsilmirdi. Bəzən də günəş səhərdən axşamacan hər yeri qızdırdığından torpaq buxarlanırdı. Yağışdan sonra günəşin şüaları altında daha da gözəlləşən, sanki cavanlaşan ağaclar, bağarası çəmənlər yamyaşıl olmuşdu. Bir tərəfdən müxtəlif quşların səsi, ikinci tərəfdən sahillərini aşıb-daşan Bərgüşad çayının qıjıltısı ətrafa yayılırdı. Kəndin yaxınlığındakı çaylaqlarda çəltik üçün yer əkən cütçülərin holavar səsi də bir tərəfdən yüksəlirdi" [2, s.31].

Ədib vətəninin gözəlliklərini o qədər aydın, dəqiq, incə detallar ilə təsvir edir ki, oxucu özünü bu gözəl təbiətin qoynunda hiss edir. O, "çəkilib dağların başında topa-topa dayanan, tül kimi nazik, tüstü kimi yüngül, kül kimi bomboz dumanı", "göyün lap ortasında gülən Günəşin gözəl simasını", "Çalbayırın yaşıl otlu geniş çəmənlərində görünən tərəkəmə alaçıqlarını", "uzaqlarda otlayan dəvələri, sürüləri, naxırları" göz önündə canlandırır, "çobanların tütək səsini, atların kişnəməsini, itlərin hürüşməsini eşidir" [1, s.323] cümlələri ilə bu gözəlliyi tamamlayır. Bu gözəlliklərdən biri də romanda öz əksini tapan payız fəslinin ecazkar gözəlliyi, "bütün canlı və cansız varlığı isidən güllü-çiçəkli yayın öz yerini sərin və solğun payıza verməsi, "sakit və məhzun bir görkəm almış dağlar", "obalar köçdükdən sonra boş qalan yaylaqların", "qurumuş çəmənlərin", "boş qalmış zəmilərin" bütün detallarına qədər təsviridir: "Aylar, günlər çayın mütəmadi axan dalğaları kimi, bir-birini qovub gedirdi. Bütün canlı və cansız varlığı isidən güllü-çiçəkli yay, indi öz yerini sərin və solğun payıza vermişdi. Dağlar sakit və məhzun bir görkəm almışdı. Obalar köçdükdən sonra yaylaqlar, yurdlar boş qalmış, çəmənlər qurumuş, zəmilərdə küləşdən başqa heç nə qalmamışdı… Lakin payızın da özünəməxsus lətafəti, gözəlliyi var…" [2, s.128].

Əyyub Abasov Zəngəzuru böyük bir məhəbbət və dərin yurd həsrəti ilə təsvir etməkdən doymur. "Yüksək dağların arasında, uzunsov bir düzənlikdə salınmış" mərkəz – Gorus bütün görkəmi və gözəlliyi ilə oxucunun gözünün önündə canlanır: "Zəngəzurun mərkəzi Gorus şəhəri yüksək dağların arasında, uzunsov bir düzənlikdə salınmışdır. Ona uca yerdən baxanda bir-birini kəsən dümdüz küçələr kvadrat şəklində görünür. Bir-iki mərtəbəli, üstü taxtapuşlu yaraşıqlı evlər nəzəri cəlb edir. Şəhər başdan-başa meyvə bağlarının içinə quylanmışdır. Dağ sularından əmələ gəlmiş və qıjıltı ilə şəhərin içindən axan dumduru çay onun gözəlliyini daha da artırır" [2, s.212]. Müəllif, Gorusun təsviri ilə kifayətlənmir, tarixə ekskurs edir: "Gorusa gələnlər və onun keçmişi ilə maraqlananlar qaçaq Nəbini xatırlamaya bilməzlər. Nəbi öz atlıları ilə bərabər günün günorta çağı qazamata hücum edərək, dustaqları azad etmişdir. Nikolay naçalniki, pristavı ondan zağ-zağ əsdiyindən, cəsarət edib qarşısına çıxa bilməmişlər. Nəbi öz hünəri ilə şöhrət qazanmışdır" [1, s.212].

Qeyd edək ki, bu təsvirlərdə yalnız Zəngəzurun təbiəti deyil, etnoqrafiyası, yaşayış tərzi, buradakı həyat*, insanların məşğuliyyəti, geyim ənənələri, dəyişkən iqlimi də əks olunur" [3, s.47]. Yazıçı bir etnoqraf kimi, yeri gəldikcə xalqının adət-ənənələrini, məişətini, istək və arzularını, geyim ənənələrini ifadə edir. "Başına ağ kəlgayı bağlamış, əyninə bənövşəyi kofta, yaxası qızıl düyməli, qırmızı məxmər kürdü, ətəyi sarı baftalı, uzun qara tuman geymiş, gümüş kəmərli balaca boylu" [2, s.37]. Aftab xanımın obrazında Azərbaycan xanımının geyimini: "bənövşəyi kofta"sını, "yaxası qızıl düyməli, qırmızı məxmər kürdü"sünü, "ətəyi sarı baftalı, uzun qara tuman"ını, "gümüş kəmər"ini bütün detalları ilə təsvir edir. Oxucunun gözündə milli paltar geyinmiş gözəl xanım obrazını canlandırmağı bacarır.

Sovet rejiminin sərt dönəmində yazılan 2 cildlik romanda ədib məqsədli şəkildə Zəngəzurun toponimlərini dəfələrlə vurğulayır, toponimlərlə bu yerlərin kimə məxsus olduğunu bir daha diqqətə çatdırır. Fikrimizcə, "Zəngəzur" romanı yalnız "tarixi salnamə" deyil, eyni zamanda qədim Oğuz yurdu olan Zəngəzurun bələdçi kitabıdır. Romanı dərindən və fərqli aspektlərdən təhlil edəndə görürük ki, yazıçının məqsədi tarixlə yanaşı, burada yaşayan xalqın kimliyini, məişətini, etnoqrafiyasını, toponimlərini yaşatmaq, ən əsası, ermənilərin Zəngəzurda heç bir zaman aborigen əhali olmadığını vurğulamaqdır. Müəllifin yorulmadan vurğuladığı toponimlər, əzəmətini, gözəl təbiətini təsvir etdiyi dağ, çay dərə adları Zəngəzurun qədim Oğuz məskəni olmasının təsdiqidir. Çünki yaşayış yerlərini seçən insanlar buradakı dağ, dərə, çay, yer adlarını da özləri verirlər. Və bu adları

* Əyyub Abasovun xalası oğlu Əziz Şərif "Atam və mən" kitabında yazır: "Əziz Şərif bu hadisələrlə və doğma yurdu Şükar haqqında yazır: " səfalı, axar-baxarlı Şəkidə hər kəs dinc və şəriətdən uzaq, dünyadan bixəbər, azad yaşayır, qızlar-gəlinlər çadranın nə olduğunu bilməz, başında yaylıq, dodağında yaşmaq dolanar, bulaqdan su daşıyar, hana qurar, xalı toxuyar, nehrə çalxalayar, yayda biçin biçər, daxıl döyər, yuyar, qurudar, evin kişilərinə kömək edərdi. Bir sözlə desək, təbii həyat sürərdi".

verərkən təbii ki, öz dillərinə, öz xarakterlərinə, öz tayfalarına və yaşadıqları yerin təbiətinə uyğun adlar düşünüb tapırlar. "Zəngəzur" romanındakı toponimlərə nəzər salaq: "İşıqlı", "Qızılqaya", "Darvaza", "Şırşır", "Qonaqgörməz", "Quşçu", "Namazlı" və s. Bu toponimlərin sayını xeyli artırmaq olar. Məsələn, romanda da adıkeçən Zəngəzur ərazisindəki hidronimlərin: Bazarçay, Bərguşad çayı, Oxçu çayı, Çaundur çayı, Oxdar çayı, Bəsitçay, Əyri çay, Dəli çay, Padarçay, Qazangöl, Qaragöl və s. demək olar ki, hamısı Azərbaycan dilindədir.

Bu toponimlər bu yerlərin kimə aid olduğunun inkaredilməz təsdiqidir. Müəllifin doğulduğu "Şəki kəndinin, həmçinin Şükərin adı sak və kimmerlərlə bağlıdır. Bütövlükdə, bir neçə kəndi çıxmaqla, Zəngəzurda erməni mənşəli heç bir topomorfant yoxdur. Zəngəzur Azərbaycan türklərinin ən qədim Vətən torpağıdır" [6, s.6]. Və yazıçı Əyyub Abasov da romanda təsvir etdiyi "dağlar ölkəsi"nin – Zəngəzurun ən əzabkeş və eyni zamanda ən qeyrətli, cəsarətli oğullarından biridir: "Bura bir növ dağlar ölkəsidir. Sıldırım qayaları, yaşıl yamacları, zəngin təbii füsunkarlığı ilə fərqlənən bu yerdə yaşayan əhalinin təbiəti də öz gözəlliyi ilə seçilir. Hayıf ki, o gözəl təbiətli insanlar o dilbər guşələri bir daha itirdilər. Bais təkcə ermənilərin rəzilliyi, məkrli siyasəti deyildi. Onların at oynatmağına meydan verən, imkan yaradan səbəblərdən ən əsası bəlkə də bizim unutqanlığımız, həddən artıq humanist, böyük ürək sahibi olmağımız, bir sözlə, ilanı quzu donunda görməyimizdir" [2, s.257].

Əyyub Abasovun böyük bir uzaqgörənliklə vurğuladığı kimi, "ilanı quzu gözündə görməyimiz"in nəticəsində 1988-ci ildə qarlı-çovğunlu dekabr ayında azərbaycanlılar, mal-mülkləri əllərindən alınaraq Zəngəzurdan deportasiya edildi.

44 günlük zəfərimizdən həmən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə 7 iyul 2021-ci il tarixində Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları hesabına Şərqi Zəngəzur iqtisadi rayonu yaradıldı. Bu iqtisadi rayonun yaradılması Qərbi Zəngəzurun da mövcudluğunun təsdiqidir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev son çıxışlarında bu fikri bir daha təsdiqləyərək tarixə ekskurs etdi: "Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik, kiminsə siyasi maraqlarının girovuna çevirə bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib. Bu, yaxın tarixdir – 101 il bundan əvvəl. Yəni biz deyək ki, bu olmayıb? Nəyə görə? Biz həqiqəti deyirik. Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur – Şərqi və Qərbi Zəngəzur. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur".

"Bizim dədə-baba torpağımız olan Zəngəzura qayıtmağımız" aktual olduğu kimi, Əyyub Abasovun keçmiş təəssüratlarının xatırlanması, "yaşanmış tarixin salnaməsi", yaddaşından silə bilmədiklərinin inikası olan "Zəngəzur" romanı da bu gün öz aktuallığını saxlayır. Şərqi Zəngəzur Qərbi Zəngəzura qovuşacağı günü gözləyir.

## Nəticə / *Conclusion*

Roman tariximizin öyrənilməsində, gənc nəslin bədii-estetik tərbiyəsinin formalaşmasında, Zəngəzurla tanışlıqda əhəmiyyətli rol oynayır. Müəllifin yaddaşında yaşatdığı tarixi hadisələr və yaşanmış qırğınlarla yanaşı, Zəngəzurun flora və faunasının, təbii gözəlliklərinin, coğrafi mövqeyinin, iqlim şəraitinin, dağ silsilələrinin, keçilməz dərin dərələrinin, insanların yaşam tərzi, məşğuliyyətlərinin, bütövlükdə etnoqrafiyasının əksi olan roman yaddaşın hökmü, xatirənin sözlə çəkilmiş şəkli, Zəngəzurun bələdçisidir.

**Ədəbiyyat / *References***


1. Abasov Ə. Zəngəzur. I kitab. – Bakı: Uşaqgəncnəşr, 1956.
2. Abasov Ə. Zəngəzur. II kitab. – Bakı: Uşaqgəncnəşr, 1957.
3. Asgerzade L. Yazarın yardımcısı: Hafıza ve hatıra: “Zengezur” romanı örneği. Dil, Edebiyat ve Kültür dergisi. Say:196. Nisan, 2025.
4. Hacı Kənan. Yaddaşın semantikası. – “Ədəbiyyat qəzeti”, 21 sentyabr, 2019.
5. Səmədova N. İnsan, zaman və həyat həqiqəti. – Bakı: Nurlan, 2011.
6. Urud Musa. Zəngəzur. (Elmi-publisistik nəşr). – Bakı: Nurlar, 2005.


## Древний историко-этнографический регион Зангезур в азербайджанском романе


**Лютвия Аскерзаде**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: asgerzadelutviyye@yahoo.com.tr



**Резюме.** Память каждого человека сопровождает его на протяжении всей жизни. Нам кажется, что мы управляем памятью, на самом же деле происходит наоборот, память управляет нами. Иногда память уподобляется воспоминанию. В психологии память это область науки, которая изучает процесс восприятия, сохранения и обратной отдачи человеком событий. Соответственно, память выступает в роли источника, кодирует в мозгу воспоминания. Человек, и в особенности творческая личность, каждое мгновение обращается к «библиотеке памяти». Потому что «память служит сырьём для творческого человека». В творчестве Эййуба Аббасова память это «сырьё» самых надёжных, самых незабываемых, и горьких и приятных воспоминаний, осознание впечатлений прошлого. В памяти писателя, наряду с историческими событиями, пережитыми несчастьями, навеки прочно запечатлелись и сохранились самые ценные воспоминания о флоре и фауне родного края, красотах природы, природно-географическое положение, климатические условия, горные гряды, непроходимые глубокие ущелья. Исторический роман «Зангезур» является отражением всего незабываемого в памяти писателя.

Автор статьи приводит внимание к значительной роли исторического романа Э.Аббасова «Зангезур» в изучении молодым поколением нашей истории, формировании его художественно-эстетического воспитания, экскурсии в древнюю землю Огузов Зангезур, его образу жизни, занятиям, и этнографив в целом.



**Ключевые слова:** азербайджанский роман, Эййуб Аббасов, роман «Зангезур», этнография Зангезура, флора и фауна, географическое положение